# Həmişəyaşar Molla Nəsrəddin

***"Mədəni-maarif"in bu sayını oxuyarkən onun 100 yaşı tamam olacaq. Söhbət ilk Azərbaycan satirik jurnalı "Molla Nəsrəddin"dən gedir. İlk sayı 1906-cı il aprelin 7-də Tiflisdə işıq üzü görüb. Ancaq bu onun son sayı olmayıb. Bundan sonra o daha 747 dəfə oxucuların görüşünə gəlib. 1906-1918-ci illərdə Tiflisdə (cəmt 340 nömrə), 1921-ci ildə Təbrizdə (cəmi 8 nömrə), 1922-1931-ci illərdə Bakıda (cəmi 400 nömrə) nəşr olunmuş jurnalın bütövlükdə 748 nömrəsi çıxmışdır. Redaktoru və naşiri Cəlil Məmmədquluzadə olmuşdur.***

***Jurnalda Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi, M.Möcüz və başqa şair, yazıçı və jurnalistlər, O.Şmerlinq, İ.Potter, Ə.Əzimzadə kimi rəssamlar fəaliyyət göstərmişlər.***

***Molla Nəsrəddinçilərin böyük istedadla yaratdıqları yüksək xəlqilik nümunəsi olan poetik, publisistik və qrafik əsərləri bu gün belə satirik sənətkarlar üçün yaradıcılıq məktəbidir.***

***Diqqətinizə verdiyimiz bu rəsmlər həmin məktəbin layiqli davamçısı görkəmli fırça ustası Nəcəfquluya məxsusdur. Karikaturalar M.Ə.Sabirin satiralarına istinadən çəkilmişdir.***



*Düşdü bütün qəzetlər qiymətdən, ay can, ay can!..*
*Xalqın canı qurtardı töhmətdən, ay can, ay can!..*



*Hətta qocalardan da neçə bəxtəvərin var,*
*Yaxşı xəbərin var.*

**Nihad**



*Millət necə tarac olur-olsun, nə işim var?!*
*Düşmənlərə möhtac olur-olsun, nə işim var?!*



*Fəhlə, özünü sən də bir insanmı sanırsan?!*
*Pulsuz kişi, insanlığı asanmı sanırsaan?!*



# MƏHƏLLİ LƏTİFƏLƏRDƏ TARİXİLİYİN İZLƏRİ

Kütləvi lətifələrlə bağlı tədqiqatlar aparılıb maraqlı elmi monoqrafiya və məqalələr nəşr olunsa da, məhəlli lətifələrdə bu məsələlərə çox az toxunulub (C. Hacıyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı, Azərnəşr, 1958, s.197; H. Araslı. Ədəbiyyat. Bakı, Azərnəşr, 1961, s.29).

Qeyd edək ki, Azərbaycanda regional xüsusiyyətlərə malik olan məhəlli lətifələr çoxdur. Bunların toplanıb nəşr olunmasına və tədqiqinə də ehtiyac vardır. Ayrım bəzəmələri, Şəki lətifələri bunlar arasında daha çox tanınır. Regional lətifələr daha çox müəyyən bir şəxs adı ilə bağlı olur. Belə ki, Ayrım lətifələri Tağı adlı şəxsin, Naxçıvan regionunda Mirabdulla ağanın, regionun Əlincəçay zonasında Qəssaboğlunun adları ilə bağlı çox lətifələrə təsadüf edilir. Bunların bir qisminin nəşr olunduğu da məlumdur. Məhəlli lətifələr öz inkişaf mərhələlərində çox vaxt kütləviləşə bilmir. Onlar müəyyən zaman və məkanla daha çox bağlı olur. Bəzən də müəllifi məlum olmayan bir əhvalat məhəlli lətifə kimi danışılır. Belə lətifələr tarixən son dövrün məhsuludur. Müəllifi məlum olan məhəlli lətifələrə görə Naxçıvanda, həm də Molla Tanrıverdi oğlu Hüseyn tanınmışdır (T. Fərzəliyev. Azərbaycan xalq lətifələri. Bakı, Elm, 1971, s.115).

***Məhəlli lətifələrin tarixilik xüsusiyyətlərindən danışmazdan əvvəl lətifələrin əsas qəhrəmanları və müəllifləri ilə bağlı bəzi məsələlərə toxunmağı faydalı sayırıq. Çünki məhəlli lətifələrin əsas qəhrəmanları və müəllifləri onun yaranma şəraiti və dövrüylə az-çox dərəcədə bağlıdır.***

Naxçıvan bölgəsində Həsən Kaşinin (Kaşaninin) adı ilə bağlı lətifələrə də təsadüf olunur. Bu lətifələrdən birinə görə şah oğlu Şah Abbas əyalətlərin birində evlənmişdir. Bir gün şah kibrit çöpünü sındırıb atdığına görə, arvadı özünü boşanmış hesab edib evdən gedir. Şah bunun səbəbini neçə qazıdan soruşursa cavab verirlər ki, bununla o əyalını boşamışdır. Bunu bilən Həsən Kaşi fırıldaqçı qazıları, din xadimlərini ifşa edir. Onların rəiyyəti aldatdığını, "çöp sındırmaqla arvad boşamaq"ın şəriətə zidd olduğunu deyir.

Demək olar ki, "Hər bir lətifədə yarandığı dövrün nəfəsi duyulur" (T. Fərzəliyev. Azərbaycan xalq lətifələri, s.120). Bəhs olunan lətifədəki əhvalat da Şah Abbasla bağlıdır. Lətifənin Şah Abbasla bağlılığına görə, onun yarandığını XVII əsrə aid etmək olar. Şah Abbasın ölümündən sonra, daha doğrusu, XVIII-XIX əsrlərdə yarandığı da ehtimal oluna bilər. Lətifədə konkret tarixi kəsim axtarmaq mümkün deyil. Lətifə qəhrəmanı Həsən Kaşinin nə zaman yaşadığı haqqında nə demək olar?

Həsən Kaşinin şəxsiyyəti haqqında əlimizdə tutarlı məlumat yoxdur. Onun bəzi mənbələrdə adına təsadüf etmək olur. Naxçıvan regionunda yaxın onilliklərə qədər yaşamış bəzi qocaların dediklərinə görə, Həsən Kaşi Bəhlul Danəndə, Molla Nəsrəddin kimi lətifə ustası olub. El yaddaşına görə, Həsən Kaşinin XIX əsrdə yaşadığını güman etmək inandırıcı görünmür. Onun XVIII əsrlə də bağlı olduğunu demək çətindir. Belə olduqda, lətifənin Şah Abbasla bağlı XVII əsrdə yaranma ehtimalı daha ağlabatandır. Görünür, Həsən Kaşinin adı ilə bağlı lətifələr vaxtilə olsa da, onlar region məhdudluğundan çıxıb kütləviləşə bilməyib.

Naxçıvan regionunun ayrı-ayrı bölgələrində lətifə qəhrəmanlarına təsadüf edilməsi qeyd olundu. Bu təbiidir. Lətifələrin yaranmasında məhdudiyyət yoxdur. Hər bir dövrdə ayrı-ayrı yerlərdə xalq arasında müəyyən şəxslərin adı ilə bağlı lətifələr meydana gəlir. Bu lətifələr də müəyyən dövrün, şəraitin məhsulu olaraq ortaya çıxır.

Satira, gülüş, əyləncə xalq lətifələrində olduğu kimi, məhəlli lətifələrin də əsas xüsusiyyətlərindən biridir. "Satiranın mühüm bir əlamət və xüsusiyyəti də məkan və zamana bağlıdır. Xalq satirası meydana çıxdığı dövrə, məkana, zamanın və yerin şəraitinə başqa sənət növlərinin hamısından daha çox bağlı olur" (Ə. Nesin. Nəsrəddin Xoca haqqında tədqiqat. "Azərbaycan" jurn., 1966, №12, s.148). Yəni bu lətifələr müəyyən bir məkanda, müəyyən bir zamanda yaranmış regional nümunələrdir.

Qəssaboğlu ilə bağlı bir neçə lətifə zaman baxımından Azərbaycanın Rusiya, çox güman ki, çar Rusiyasının tərkibindəki dövrlərə təsadüf edir.

Ümumiyyətlə, məhəlli lətifələrin çoxu müəyyən dövrlə, bəzən də real şəxsiyyət, yaxud onun el arasındakı prototipilə bağlı yaranmış nümunələrdir. Belə şəxslər, deyildiyi kimi, müəyyən regionlarda əksər halda lətifə qəhrəmanları kimi tanınmışdır.

"Naxçıvan folkloru" antologiyasında gülməli, məzəli, lətifə xarakterli söhbətlər "İbrətamiz hekayələr", "Gülməcələr" başlığı ilə verilmişdir. (Naxçıvan folkloru, I k. Bakı, Sabah, 1994, s.230-234, 254-261). Bunlardan "Kim çox yeyir", "Hamama apar", "O tapıb yeyə bilməyib", "O dünyada ətək olmayacaq", "Hacı Heydəri muştuluqlayın...", "Şələni götürən Namazəli", "Mən də şələnin üstündəyəm", "Bir də qayıtmadı" kimi nümunələr daha səciyyəvidir.

"Kim çox yeyir" məhəlli lətifəsində Mirabdulla ağadan soruşurlar ki, "molla çox yeyir, ya seyid?". Cavab verir ki, "bir molla yeddi camışcan, bir seyid isə yeddi mollacan yeyir". "Hamama apar" lətifəsində isə uşağı gecə-gündüz ağlayıb yatmayan bir qadın bunun əlacını Mirabdulla ağadan soruşduqda cavab verir ki, hamama apar.

Birinci lətifəyə görə, bir molla nə qədər tamahkardırsa, bir seyidin tamahı ondan yeddi dəfə çoxdur. İkinci lətifədə isə qadının sadəlövhlüyü, tənbəl adamların avaralığı, yoxsulluğu lağa qoyulur. Daha doğrusu, birinci lətifədə gülüş, tənqid hədəfi dindarlar, ikincidə sadəlövh qadın və tənbəl adamlardır.

"Dağ gəlir" lətifəsində Abbasqulu kişi kasıb bir oğlanı varlı, tayfası güclü bir ailədən evləndiyi üçün məzəmmət etdikdə oğlan deyir ki, "dalımı dağa söykəmişəm". Oğlan arvadını döydükdə arvadın qardaşları oğlanın üstünə hücum çəkir. Bunu görən Abbasqulu kişi oğlanı xəbərdar edir ki, "bala qaç, dağ gəlir".

Yaxud "Bir də qayıtmadı" lətifəsində aldığını geri qaytarmayan bir qonşu Abbasqulu kişidən mişar almağa gəlir. Mişarı gətirib o üz, bu üzündən öpüb verdikdə qonşunun təəccübləndiyini görən Abbasqulu kişi deyir:

- Qonşu, ayrılıqdı, deyirəm getdi, bəlkə qayıtmadı.

Abbasqulu ilə bağlı lətifələr çoxdur. Bunlardan bir neçəsinin qısa məzmunu verildi. Öz hazırcavablığı ilə seçilən bu adamın Qarabağlar (Kəngərli rayonu) kəndində yaşamış olduğu söylənilir. Deyilənə görə, o, uzun ömür sürmüş, qoca vaxtlarında gözləri zəiflədiyindən yaxşı görə bilməmişdir. Bu yaşında da məzəli, gülməli söhbətlərindən qalmırmış.

Məhəlli, gülməli söhbətləri ilə tanınanlardan biri də Məhərrəm adlı bir şəxs olmuşdur. Onunla bağlı məhəlli lətifələrdən birində deyilir ki, kəndin mollası Məhərrəmdən üç manat pul alır ki, Quran oxuyacam, dədən getsin cənnətə. İki-üç gündən sonra molla yenə ondan bu məqsədlə pul istədikdə Məhərrəm deyir:

- Molla, dədəm cənnətdə nə günah işlədib ki, ordan çıxarıblar?

Yaxud başqa bir nümunədə deyilir ki, dostlarından biri Məhərrəmdən soruşur niyə fikirlisən? Cavab verir ki, niyə fikirli olmayım. Qonşum Hacı Mürsəl kişinin ulağı Sədərək dəhnəsində palçığa batıb, quyruğu da yoxdur. Dərd məni alıb ki, onu necə çıxaracaqlar?

Məhərrəmin adı ilə bağlı belə söhbətlərin sayını artırmaq da olar. Lakin məqsəd bu deyil. Məqsəd onun regional lətifələr müəllifi olduğunu göstərməkdir. Məhərrəmin yaxın zamanlarda yaşadığı söylənilir. Lətifələrdən birinə görə, onun dülgər olduğu və Sədərək kəndində vaxtilə yaşadığı məlum olur.

Digər məhəlli lətifələrdəki Hacı Heydər, Namazəli də yaxın dövrün şəraitilə bağlı məhəlli surətlərdir. El deyimlərinə görə, bunlar da yaxın keçmişlərdə yaşamış şəxslərdir. Məkan baxımından bu nümunələr regionun Naxçıvan, Şərur, Sədərək bölgələri ilə daha çox bağlıdır. Belə məhəlli nümunələr kütləvilik səviyyəsində durmasa da, onlarda həyat gerçəkliyinin izləri, tarixilik vardır. Bunlarda müəyyən həyati müşahidə və sınaqlardan doğan ibrətamiz həqiqətlər ifadə olunur.

Məhəlli lətifələrdə müəyyən dövrlərdə yaranmış yazılı ədəbiyyatın, ayrı-ayrı şair və yazıçıların həyatı, yaxud yaradıcılığı ilə bağlı məsələlərin təsiri də hiss olunur. Bu, belə nümunələrin tarixən daha çox həmin mühitlə bağlandığını söyləməyə əsas verir. Naxçıvan regionunda daha çox Mirzə Cəlillə, eləcə də Hüseyn Cavidlə bağlı belə hekayətlərə, məzəli əhvalatlara təsadüf olunur.

Yeri gəlmişkən qeyd edək ki, folklor söyləyiciləri arasında M. Cəlili Molla Nəsrəddinlə eyniləşdirmək istəyənlər çoxdur. Bu, hər şeydən öncə böyük demokrat yazıçı C. Məmmədquluzadənin vaxtilə məşhur "Molla Nəsrəddin" satirik jurnalını çap etdirməsi və Molla Nəsrəddin təxəllüsünü işlətməsilə bağlıdır. M. Cəlillə, eləcə də H. Cavidlə bağlı belə regional lətifələrdən bir neçəsi folklor ədəbiyyatlarında nəşr olunub. Bu nümunələrdə də xalqdan gələn yumor, mənalı gülüş, hazırcavablıq özünü göstərir. "Faytonçunun yanında özüm otururam", "Çətini qocalana qədərdir", "O dünyada başına nə gələcəyini